**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 1803 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən “Seçkilər” İnformasiya Mərkəzi Komissiya Katibliyinin tərkibinə daxil edilmiş və həmin Sərəncamın icrası məqsədi ilə Mərkəzi Seçki Komissiyası 23 dekabr 2011-ci il tarixli 17/54 saylı qərarı ilə Mərkəzi Seçki Komissiyası Katibliyinin struktur və ştat vahidlərində dəyişikliklər etmişdir.

Bununla əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasının 10 oktyabr 2007-ci il tarixli 6/16 saylı Qərarı ilə təsdiq edilmiş “Dairə seçki komissiyasının katibliyi haqqında Əsasnamə”yə və 5 oktyabr 2005-ci il tarixli 32/149 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları”na dəyişikliklər etməlidir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 10 oktyabr 2007-ci il tarixli 6/16 saylı Qərarı ilə təsdiq edilmiş “Dairə seçki komissiyasının katibliyi haqqında Əsasnamə”nin 10.2-ci bəndindən “həmçinin “Seçkilər” İnformasiya Mərkəzi direktorunun” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 5 oktyabr 2005-ci il tarixli 32/149 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları”nın 10-cu bəndində “nəzdində “Seçkilər” sözləri “Katibliyinin” sözü ilə əvəz edilərək strukturu müvafiq olaraq ərəb rəqəmi ilə nömrələnsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov